**(3)**

# QLOBALLAŞMA DÖVRÜNDƏ İRAN VƏ RUSİYA ARASINDAKI SİYASİ MÜNASİBƏTLƏRİN BƏZİ ASPEKTLƏRİ

**Abdol Naser FAIIAZY**[35]

Özet: Yazar globalization döneminde bazı teorik İran'ın ve Rusya'nın arasındaki siyasal işbirlik görünüşleri inceler. Yazar tek her iki bu ülkeler durumu da biraraya getiren faktörler kategorilerini sınıflar ve hangi bu ülkeler durumlarının ara orada kesin Farklılıklar

Abstract: The author examines some theoretical aspects of political cooperation between Iran and Russia in the period of globalization. The author classifies the individual categories of factors that bring together both the positions of these countries, and which between the positions of these countries there are certain differences.

**Keywords:** Iran, Russian, globalization, Azerbaijan, Islam, energy

Soyuq müharibənin başa çatmasından sonra beynəlxalq münasibətlər sisteminin yeniden formalaşması prosesi yeni güc təmərküzləşmələrini və müxtəlif ölkələrin yeni münasibətlər sistemini qurma ehtiyacını gündəmə gətirdi. Yeni dövr ABŞ-in tək qütüblü dünya qurma təşəbbüsləri, AB-nin qlobal aktyor olma arzusu, Çinin və Hindistanın əhalisinin çoxluğu və sürətli iqtisadi inkişafı, Yaponiyanın rol arayışı və Rusiyanın bu prosesdə fəal iştirak arzusu ilə səciyyələnməkdədir. Bu prosesdə əsas mübarizə mərkəzlərindən biri kimi dünya enerji ehtiyatların büyük bir hissəsinin yerləşdiyi Yaxın Şərq və Xəzər bölgələri böyük önəm qazandı. Beynəlxalq münasibətlər sisteminin gələcək taleyinin müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malik olan bu coğrafiyadakı güc mübarizəsində bölgə xaricindən bir gücün, yəni fövqəldövlət ABŞ-ın fəallığına qarşı ənənəvi bölgəsəl güc İran ilə SSRI-nin dağılması ilə fövqəldövlət statusunu itirərək özünə yeni rol axtarışında olan Rusiyanın münasibətləri xüsusi diqqət cəlb etməkdədir.

Qısa bir dövrdə, İranda 1979-cı ildə İslam inqilabının qələbəsindən 1991-ci ildə Sovet Sosialist Respublikaları İttifaqının dağılmasına qədər İranda və Rusiyada, eləcə də dünya səviyyəsində baş verən kompleks dəyişikliklər və proseslər İran və Rusiya arasındakı münasibətləri əsaslı dəyişikliklərlə üz-üzə qoydu. Bu münasibətlər birtərəfli və birmənalı şəkildə Rusiyanın xeyrinə olan formadan yeni bir fazaya daxil oldu ki, bu da qarşılıqlı mənafelərə əsaslanan əlaqələrə əsaslanırdı. İranın siyasi elitası keçmiş Sovetlər Birliyinin dağılmasının İranda şah rejiminin süqutu ilə mənafeləri itirmiş ölkə olan ABŞ dünyadakı hegemonluğunun artacağına səbəb olmasından narahatlıq keçirməyə baxmayaraq, optimist baxışlarla qonşu ölkələrdə güdən prosesləri izləyirdilər. Digər tərəfdən isə soyuq müharibə döyründəki mülahizələr və sonu sıfıra bərabər olan oyun kontekstində iki supergücün oyunu, İranın yüksək rütbəli dövlət rəsmləri üçün ölkənin mənafeyi naminə supergüclər arasındakı təzadlardan faydalanmaq üçün ikiqat imkanlar və fürsət yaratdı. Qeyd etmək lazımdır ki, İranla Rusiya arasındakı əlaqələrin tarixinə nəzər saldıqda görürük ki, heç bir dövrdə belə bir imkanlar mövcud olmamışdır. Yuxarıda qeyd olunan məqamları nəzərə alaraq, bunu deyə bilərik ki, dialoq və danışıqlardakı atmosferdəki dəyişikliklər özünü biruzə verdi. Başqa sözlə desək 15 illik bir zaman kəsiyində İranda və Rusiyada mövcud hakimiyyətin baxışlarında əsaslı dəyişikliklər arxada qaldı. Daha sonra isə soyuq müharibə sona yetdi və qloballaşma dövrü başlandı. [1, 176-178]

---

[35] AMEA Insan Hüquqları İnstitutunun doktorantı, Bakı/AZERBAYCAN.

Tarixən bölgədə rəqabət içində olan Rusiya və İranın bugünkü şərtlərdə daha çox əməkdaşlıq edən və hətta strateji xarakterli əlaqələr quran iki ölkə olduğu müşahidə edilməkdədir. Bunun əsas səbəbi hər iki ölkənin yeni dünya sisteminə baxışında meydana çıxan ümumi strateji xəttdir. Hər iki ölkənin beynəlxalq sistemin yaxın və orta gələcəyiylə bağlı əsas məqsədi ABŞ-ın öz hegemonyasında qurmaq istədiği tək qütblü sistemin əleyhinə çıxmaq və bunun əvəzinə çox qütblü sistemin qurulmasına çalışmaqdır. Rusiya üçün bu əsas strateji məqsədin həyata keçirilməsində İranın xususi önəmi var. (2)

Xüsusiylə də Putinlə birlikdə yeni bir strateji inkişaf xətti tutan Rusiyanın "böyük strategiyası" (grand strategy) üç əsas istiqamətdən ibarətdir: 1) Müasir beynəlxalq sistemdə güclü və böyük dövlət olmaq üçün ölkədə inkişaf etmiş ölkələrin standarlarına uyğun lazımi iqdisadi, siyasi, hərbi və ideoloji transformasiyasını/reformları həyata keçirmək. 2) Vaxtından əvvəl, yəni öz iqtisadi, siyasi, hərbi və ideloji transformasiyasını həyata keçirmədən ABŞ-la birbaşa qarşı-qarşıya gəlməmə taktikasına üstünlük vermək. Bu taktikanı şərtləndirən iki əsas səbəb var. Birincisi, bu transformasiyanı həyata keçirmək üçün Rusiyanın Qərbin maddi-texniki köməyinə və ən əsası "strateji fasiləyə", yəni zamana eytiyacı var. İkincisi, reformlarını tamamlamayan Rusiyanın ABŞ-la təkbaşına açıq rəqabətdə uduzacağı çox açıqdır. 3) Ancaq o biri tərəfdən Rusiya bu müddət ərzində ABŞ-ın beynəlxalq sistemdə öz üstünlüyünü tam təmin etməsinə imkan verməmək və bu məqsədlə çox qütüblü sistemin qurulmasınına təkan verən proseslərin inkişafını sürətləndirmək arzusundadır. (3, 2)

İran Rusiyanın bu böyük strategiyasıın üçüncü istiqamətində ən önəmli rollardan birinə sahibdir. Mövcud şərtlərdə Rusiya üçün İranın əhəmiyyətini artıran amillər bunlardır: Əvvala, İran ABŞ-ı "böyük şeytan" kimi görməkdə, onun dünyada və xüsusiylə də Yaxın Şərqdə hegomonya qurma siyasətinə açıqca və həm də radikal şəkildə qarşı çıxmaqdadır. İkincisi, ABŞ-ın kürəsəl hakimiyyətinin vacib taktik hədəfləri olan enerji amili və İslam dünyası baxımından da İran əhəmiyyətli rola sahibdir. Rusiya İranı beynəlxalq sistemdə getdikcə güclənən din faktorunun fonunda ABŞ-a qarşı İslam dünyasındakı potansial strateji müttəfiqlərdən biri kimi görməkdədir. Bundan başqa həm isbatlanmış qaz ehtiyatlarına, həm də neft ehtiyatları baxımından ikinci sırada olması da İranın Rusiya üçün önəmini ortaya qoymaqdadır. (4, 2)

İranın dünya enerji ehtiyatlarının təxminən % 70-75-nin yerlədiyi Yaxın Şərq və Xəzər bölgəsinin ikisinə də aid dövlət olması onun strateji önemini Rusiya üçün daha da artırmaqdadır. İran üçün Rusiyanın önəmini şərtləndirən amilləri isə rəsmi Tehranın mevcud beynəlxalq sistemdəki vəziyyəti ortaya qoymaqdadir. Belə ki, İran halhazırda dünyadakı tək fövqəldövlət olan ABŞ-a düşmənçilik mövqeyindədir və mövcud şərtlər baxımından da yaxın gələcəkdə vəziyyətin dəyişməsi ehtimalı zəifdir. Bu baxımdan mövcud beynəlxalq sistemdə İranın güclü strateji münasibətlər qurabiləcəği ölkələrə ehtiyacı var. Rusiya isə bunun üçün ən önəmli ölkələrdən biridir. Əvvala, Rusiya BMT Təhlükəsizlik Şurasının veto hüququna malik ölkəsi kimi İran üçün çox vacibdir. İkincisi, İran rejiminin öz strateji təhlükəsizliyinin təmini üçün vacib saydığı nüvə proqramını davam etdirmə siyasətində Rusiya əvəzedilməz tərəfdaşdır. Üçüncüsü, İrana qarşı bir Xristian təmərküzləşməsinin qarşısının alınması baxımından pravoslav Rusiya ilə əməkdaşlıq çox əhəmiyyətlidir. Dördüncüsü, İran üçün elə enerji amili baxımından da böyük enerji ehtiyatlarına malik olan və Putinlə bərabər bir enerji süper gücü olmağa başlayan Rusiya ilə ümumi strateji xətt ABŞ-ın hegemonyasına qarşı vacib şərtdir. Bütün bu strateji mənzərə içində Rusiya və İranın ABŞ hegemoniyasına qarşı çıxma məqsədi çərçivəsində Orta Asiya, Qafqaz və Yaxın Şərq kimi bölgələrdəki yaxın və orta perspektivdəki maraqlarının ümumi mənada üst-üstə düşdüyünü demək mümkündür.(5,)

İran və Rusiya münasibətlərinin nəzəri əsaslarının tədqiqi vacib əhəmiyyət kəsb edir. Realistlər belə düşünürlər ki, İran və Rusiya arasındakı əlaqələr spesifik milli mənafeyə malik olan iki ölkə arasındakı əlaqələrə bənzəyir. Bu əlaqələr müxtəlif şəraitdə güclərin oyununun müxtəlif formalarını nümayiş etdirir. Realist nəzəriyyələrinə görə dövlətlər mütləq nailiyyətlər deyil bəlkə, daha çox nisbi nailiyyətlər ardıncadırlar. Bu nəzəriyyəyə əsasən oyunçular qarşı ölkənin daha çox fayda götürəcəyindən narahatlıq keçirirlər. Liberallar isə belə düşünürlər ki, əməkdaşlıq mənafeləri İran və Rusiya arasındakı münasibətlərdə ən

mühüm amillərdən biri sayılır. Liberalların baxışlarına görə dövlətlərin hansı səbəbdən biri-birilə əlaqədə olması, elə də çətin başa düşünülən və izah edilən məsələ deyildir. Dövlətlər qarşılıqlı şəkildə mənfəət və fayda götürməyə əsaslanan əlaqələr fonunda əməkdaşlığa meyillidirlər. Sadəlöv insanların baxışlarına əsasən İran və Rusiya münasibətləri ictimai rəydən formalaşan hesablamalardır. İran və Rusiya arasındakı münasibətləri daha dərindən öyrənmək üçün diqqəti Rusiyanın tutduğu mövqeyi təhlil etmək üzərində cəmləşdirmək lazimdır. Məsələn, İranın ABŞ əleyhinə olması, ABŞ və digər qərb dövlətlərin düşmən xarakterli davranışı təqribən desək enişli-yoxuşlu olmaqla sabit olaraq davamlı xarakter daşımışdır. Bunun müqabilində isə Rusiya mövcud vəziyyət fərqli idi. Belə ki, bəzi iran tədqiqatçıları Rusiyanın xarici siyasətinin proqnozlaşdırılmasını qeyri mümkün olan siyasət kimi qiymətləndirirdi. [6, 23-25]

İran və Rusiya münasibətlərinin təhlil səviyyələrinə toxunaraq, qeyd etmək lazımdır ki, SSRİ-nin dağılması əslində yanlız İran və Rusiya arasındakı zehni strukturları və əməkdaşlıq meyarlarını dəyişikliyə məruz qoymadı, bəlkə iki ölkə arasındakı əməkdaşlıq sahələrini başqa bir formaya saldı. İran və Rusiya münasibətlərində yeni mərhələ zaman nöqte-nəzərindən keçmiş zamanlarda iki ölkə arasındakı əlaqələrlə müqayisə olunmaz olsa da, həcminə, geniş miqyasına və əhəmiyyətinə görə keçmişdəkindən daha çox müxtəlif və təlatümlü olmuşdur. İki ölkənin əməkdaşlıq sahələrinin müxtəlifliyi və geniş miqyaslığı müxtəlif səviyyələrdə - beynəlxalq, regional, ikitərəfli və daxili dəyərləndirilə bilər.

Belə ki, fikrimizcə, İran və Rusiya beynəlxalq və reional səviyyədə iki peşəkar və həlledici qüvvəyə malik olan oyunçudurlar. Rusiya dövləti nüvə silahları daxil olmaqla hərbi və siyasi gücünə və iqtisadi potensialına, eləcədə Beynəlxalq Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında “veto” hüququna malik olduğu üçün Sovet İttifaqının dağılmasından sonra üzləşdiyi bütün problemlərə rəğmən hələ də dünyanın supergüclü dövlətləri sırasındadır. İran isə İslam dünyasında malik olduğu özünə məxsus mövqeyinə görə sözün əsl mənasında qlobal təsirə malik regional güc hesab olunur. Məhz bu səbəbdən İran və Rusiya arasında nüvə texnologiyaları və silah istehsalı kimi əhəmiyyət kəsb edən sahələrdə əməkdaşlıq əlaqələri beynəlxalq aspektlərə malikdir. Başqa sözlə desək mövzunun həsaslığı səbəbindən İran və Rusiya arasındakı əlaqələr bir çox sahələrdə ikitərəfli məhdud atmosferdə qalmamışdır. Belə ki, Rusiya dünyanın bir çox ölkələrilə İranla müqayisədə daha geniş əlaqələrə malikdir və Rusiyanın bu ölkələrlə əlaqəsi digər supergüc ölkələrin diqqət mərkəzində olmamışdır.

Regional səviyyədə isə istər Orta Şərqdə, istərsə də Orta Asiya və Qavqazda potensial gücə malik olan oyunçu kimi təsirli rola malik olan İranın tutduğu mövqe İran və Rusiyanın eyni zamanda qarşılıqlı və ya ziddiyyətli mövqelərin gündəmə gəlməsinə səbəb olur. Bu sahələrin hər birində iki ölkənin mənafeləri müxtəlif aspektlərə malikdir və müxtəlif maraqlardan irəli gəlir.

Əksər hallarda İran və Rusiya arasındakı əlaqələr ikitərəfli səviyyədə olmuşdur. Hətta İran məsələsinin ABŞ-Rusiya danışıqları mövzusu olduğu zaman İran və Rusiya münasibətləri ikitərəfli əlaqələr çərçivəsindən çıxmırdı. Son illərdə də İran və Rusiya ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün çoxsaylı səbəblər tapmışlar. Rusiyada mövcud olan iqtisadi durum səbəbindən ölkə iqtisadiyyatına investisiya qoya biləcək hər bir ölkə müsbət qarşılanırdı. İran da ABŞ-nın sanksiyaları səbəbindən texnologiya və silah baxımdan çıxışı olmayan dalandan çıxış tapmaq üçün hər hansı bir yolu yeni bir imkan kimi diqqət mərkəzində saxlayırdı.

Xüsusən son illərdə İran və Rusiya arasındakı əlaqələrin səviyyəsi və forması texniki və rəsmi səviyyədən çıxaraq iki ölkənin daxili səviyyələrində ictimai rəyi düşündürən mövzulardan birinə çevrilmişdir. Bir çox mütəxəssislər və siyasi ekspertlər bu mövzuları diqqət mərkəzində saxlamaqla onunla əlaqədar fikirlərini və rəylərini bildirirlər. Kütləvi informasiya vasitələrinin (KİV) fəaliyyətinin genişlənməsi səbəbindən, eləcə də mövzunun mahiyyətinə görə iki ölkənin müxtəlif sahələrdə, xüsusilə nüvə sahəsində əməkdaşlığı ictimaiyyətin diqqət mərkəzində qalmaqdadır. [7, 124-125]

İran və Rusiya münasibətlərində önləyici və mənfi amillərə dair qeyd etmək lazımdır ki, İran və Rusiya mədəniyyət və ideoloji baxımından fərqli cəhətlərə malik olan iki ölkədir. Bu ölkələr arasında ideoloji nöqte-nəzərindən mövcud olan fərqli cəhətlər spesifik durumda ciddi təzada çevrilmək üçün böyük potensiala malikdir.

İran və Rusiya münasibətlərinə təsir edə bilən amillər içində NATO-nun Şərqə doğru genişlənməsi, üçüncü gücün, eləcə də transmilli nəhəng neft şirkətlərinin bu regionda nüfuz dairəsi, və bununla yanaşı regionda etnik münaqişələrin adlarını sadalamaq olar. Lakin daha dərin araşdırmanın aparılması göstərir ki, bu məqamların heç biri birliyə gətirib çıxaran müştərək hədələr xüsusiyyətinə malik deyildir.

İran və Rusiya münasibətlərinə təsir edə bilən vacib amillərdən biridə hər iki ölkənin iqtisadiyyatının mükəmməl olmamasıdır. İran-Rusiya ticarət mübadiləsinin həcmi 2008-ci ildə 3,7 mlrd. ABŞ dollarına çatsada [8], iki ölkə arasındakı iqtisadi əlaqələr, bəzi irəliləyiş və inişaf templərinə baxmayaraq, şübhə və çatışmamazlıqlarla müşayət olunmaqdadır. Rusiya tərəfinin öz öhdəliklərini yerinə yetirməməsi və ya yubatması (Buşir AES-nın inşasını misal göstərmək olar), İran tərəfindən ödəmələrdə problem yaranması, Rusiya istehsalı olan malların keyfiyyət və texnologiya baxımından aşağı səviyyədə olması, nəticə etibarı ilə bu malların İranın ehtiyaclarını ödəməməsi, iki ölkənin arasında iqtisadi əlaqələrdə problemlərin meydana gəlməsinə gətirib çıxaran amillərdən sayılır.

Digər bir amil isə Rusiyanın siyasi atmosferinin müəyyənliyi və bu ölkədəki sabitsizlik. Hələ 1939-cu ildə Böyük Britaniyanın Baş naziri Uinston Çerçil Rusiya barəsində belə demişdir: “Mən Rusiyanın gələcəkdə hansı addımlar atacağını proqnozlaşdıra bilmərəm. Rusiya müəmmalı, sirli və mürəkkəbdir. Reallıq budur ki, Rusiyada müxtəlif meyillərin meydana gəlməsi və baş qaldırması bu ölkənin siyasi elitasına İranla əlaqələrdə həmrəyliyin olmamasına səbəb olan amillərdəndir. Nəticə etibarı ilə Rusiya ilə İran arasında etimad və inteqrasiyanın baş tutması yolunda çoxsaylı problemlər meydana gəlmişdir”.

Vacib amillərdən biridə İran xalqının tarixi yaddaşıdır. Tarixdə baş verən olayları nəzərə alaraq, qeyd etməliyik ki, ruslar İran xalqının yaddaşında və zehnində müsbət simada qalmayıblar. İranlılarda belə bir fikir formalaşıb ki, Rusiya tarix boyu tamah gözlərini İran torpaqlarına tikmiş ölkədir. Tarixdə Rusiya tərəfindən edilən hücumlar yaddaşda bu ölkənin xoş simada qalmamasına səbəb olmuşdur.

İranla Rusiya münasibətlərində önləyici rol oynayan amillərdən digəri kimi Orta Asiya və Qafqazın neft və qaz resurslarının nəqli, eləcədə Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsində İran və Rusiya arasında fikir ayrılıqlarına toxunmaq olar. [9]

Bununla yanaşı, fikrimcə İran və Rusiya münasibətlərində bir neçə inteqrasiya amillərini qeyd etmək olar.

Birincisi, NATO-nun Şərqə doğru genişlənməsi planı reallaşacağı təqdirdə İran və Rusiya öz sərhədlərində eyni təhlükələrlə üzləşəcəkdir. Bu məsələ onlar arasında müəyyən yaxınlaşmaya və hətta inteqrasiya amilinə çevrilə bilər. Prof. P Dərəbadi qeyd edir ki, İran kontinental tipli regional dövlətdir və onun maraqları bir çox hallarda Rusiyanın maraqları ilə üst-üstə düşür, xüsusən cənub istiqamətində NATO-nun Şərqə doğru irəliləməsinə müqavimət göstərmədə. [10, 164-165]

İkincisi, regionda sülhün və sabitliyin qorunması və Qərb ölkələrin regiona nüfuzunun önlənməsi amili. Belə ki, Orta Asiya və Qafqaz regionu İran və Rusiya üçün təhlükəsizlik zonası sayılır və hər iki ölkənin geosiyasi durumunu təsir altına salır. Bu nöqteyi-nəzərdən bu region hər iki ölkə üçün həssas və həyati əhəmiyyətli sayılır.

Üçüncüsü, nəhəng qərb neft və qaz şirkətlərinin regionun neft və qaz resurslarına nəzarətinin qarşısının alınması amili. Belə ki, Orta Asiya və Qafqaz regionunda neft və qaz resurslarının inkişafı məsələsi rusların nöqteyi-nəzərincə yanlız iqtisadi fenomen deyil [11], bəlkə Rusiyanın milli təhlükəsizliyi ilə birbaşa bağlılığı olan strateji faktordur. Rusiya prof. A.A. Kokoşin qeyd edir ki, rusiya “siyasi sinifin” böyük bir hissəsi amerika (və bütövlükdə qərb) energetika şirkətlərinin Xəzər və Mərkəzi Asiya regionuna soxulmasına çox mənfi yanaşdı [12, 39] Digər tərəfdən, qərblilərin regionda varlığı İranın da milli təhlükəsizliyini təhlükə altına qoya bilər. [13, 5]

Məhz bu məsələ hər iki ölkənin mövqelərində yaxınlaşmanın meydana gəlməsinə səbəb olmuş, iki dövlətin bir sıra strateji maraqlarının üst-üstə düşməsində böyük rol oynamışdır. [14, 61]

Müasir dövrdə İran və Rusiya regionda intensiv rol oynaya bilərlər. Eyni halda bu iki qonşu ölkənin regiona yaxşı təsirləri ola bilər.

ƏDƏBİYYAT

Mahmud Şuri. İran və Rusiya münasibətlərində yeni mərhələnin dialoq strukturu//Rahbord (Strateqiya) jurnalı. № 47, 1387 (miladi tarixi ilə 2008), s.176-178.

О дипломатических отношениях Российской Федерации с иностранными государствами http://www.mid.ru/nsite-sv.nsf/4d82d693c900b211c325756300358f4c/48c43a5acd47994ac32575760040ff1d?OpenDocument

Эндрю Качинс. Нова ли новая политика Путина? Независимая газета, 28 февраля 2003

Julian Borger. Bush's love of Pootie-Poot Putin // Guardian, 20 мая 2002

Внешняя политика Ирана и значение на международной арене как актера Международных отношений http://5ballov.qip.ru/referats/preview/92100?kursovaya-vneshnyaya-politika-irana-i-znachenie-na-mejdunarodnoy-arene-kak-aktera-mejdunarodnyih-otnosheniy

Mahmud Şuri. İran və Rusiya. Özəl Universitetin nəşriyyatı, 1388 (miladi tarixi ilə 2009), s. 23-25.

Mansur Kamqari. Sovet İttifaqının dağılmasının İranın milli təhlükəsizliyinə təsiri. Pərləman Nəşriyyatı. 1386 (miladi tarixi ilə 2007), s. 124-125.

О торгово-экономическом сотрудничестве с Исламской Республикой Иран//URL:http://www.mid.ru/nsrasia.nsf/1083b7937ae580ae432569e7004199c2/f59eef21d4cb660043256a54002a62ae?OpenDocument

Mahmud Dağəti. Beynəlxalq siyasi araşdırmalar mərkəzi. Tehran, 1387 (miladi tarixi ilə 2008), s. 70-71.

R. İsmayıl, N. Axundova, A. Bağırova. Asiya və Afrika ğlkələrinin çağdaş tarixi. Bakı, "Adiloğlu" nəşriyyatı, 2004.- 656 s.

Дарабади П.Г. Геоистория Каспийского региона и геополитика современности. Баку, Элм, 2002. – 192 с.

Кокошин А.А. Международная энергетическая безопасность. М., 2006. – 80 с.

Mahmud Dağəti. Beynəlxalq siyasi araşdırmalar mərkəzi. Tehran, 1387 (miladi tarixi ilə 2008), s. 70-71.

Пашковская И.Г. Энергетическая политика Европейского Союза в отношении России и новых независимых государств. М., 2010. – 168 с.